# QÜDRƏTİ



XX yüzilliyin 30-cu illərində əyalət şəhərinin - Naxçıvanın məktəb səhnəsində rollar oynayan balaca Heydər Əliyev aktyor olmağı arzulayırmış.

Aktyor olmadı, amma aktyorluq, hər halda, ömründə, taleyində qaldı və teatr səhnəsində deyil, Tarix səhnəsində ona millətinin taleyindəki ən baş rollardan birini oynamaq qismət oldu.

Bakıya gəldi, 1930-40-cı illərdə yetərincə məşhur Sənaye İnstitutuna memarlıq ixtisasına yiyələnmək arzusuyla daxil oldu.

Dava başladı, təhsili yarımçıq qırıldı, amma hər halda, o, memar oldu.

Memar düşüncə tərzi onun təfəkkür tərzinə çevrildi.

Görəcəyi hər bir işin ən xırda ayrıntısınacan layihəsi irəlicədən beynində hazır oldu.

Ona görə heç vaxt tələsik, qarasına, sonrası necə olacağın fərqinə varmadan addım atmadı.

O, Millətinin və Məmləkətinin yeni tarixinin memarı oldu, Güclü Azərbaycanın, Müstəqil Azərbaycanın, dünyanın saygı göstərdiyi, istiqlalı dönməz, iqtisadiyyatı günü-gündən qüdrətlənən çağdaş Azərbaycanın Memarı oldu.

Tarixçi təhsili aldı. Yaxşı bir tarix müəllimi olardı, dəyərli bir tarixçi alimə çevrilə bilərdi.

O keyfiyyətlər ki fitrətən ona qismət idi, onların sayəsində Heydər Əliyev hansı ixtisasa üz tutsaydı, seçiləcəkdi, üstünlüyü dərhal nəzərə çarpacaqdı.

Nə auditoriyalara, siniflərə daxil olub xəritə qarşısında mühazirə oxuyan tarix müəllimi oldu, nə keçmiş tarixləri tədqiq edən bir alim.

Millətə dərs verən bir Müəllim oldu.

Xalqının müasir tarixini yaradanlardan, ölkəsinin Xəritəsini hifz edənlərdən oldu.

Heydər Əliyev olmağın sirri nədir?

Bütün üstün xüsusiyyətlər ki Heydər Əliyevdə vardı, onlar hamısı insana xas bacarıqlardır və başqalarında da olmamış deyil.

Heydər Əliyev güclü hafizə sahibi idi.

Amma nə çox möhkəm yaddaş yiyələri.

Heydər Əliyev qətiyyətli idi, dəmir iradəli idi, qorxmaz idi, cəsarətli idi.

Bu keyfiyyət sahibləri də az deyil.

Heydər Əliyev uzaqgörən idi, bəsirətli idi.

Az-az rast gəlinsə də, hər halda, belə insanlar da olub, var, olacaq.

Heydər Əliyev çevik idi, ani reaksiya qabiliyyətinə malik idi, qəfil qərarlar qəbul etməyin ustası idi.

Belələri də tapılır.

Heydər Əliyev dövlətçilik, hakimiyyət maşınına cikinə-bikinə qədər bələd olan, bu maşının sükanını gözüyumulu və yanılmadan idarə etmək vərdişlərinə malik idi, hakimiyyət qrossmeysteri idi.

Bu qəbil şəxslər də tarixdə olub və yəqin, yenə var.

Yaxşı, onda bəs nədədir Heydər Əliyevin nadirliyi, təkrarsızlığı?

Bütün başqa dahiyanəliklər kimi, bunun da cavabı sadədən sadədir.

Sirr ondadır ki, ayrı-ayrı adamlarda ayrı-ayrılıqda bu keyfiyyətlər var.

Heydər Əliyevdə isə o keyfiyyətlərin hamısı toplu halında, vəhdətdə idi!

Belə şəxsiyyətlərsə həm ayrı-ayrı xalqların, həm də bütövlükdə insanlığın tarixində həmişə tək-tək olub.

* * *

1994-cü il idi, İran İslam Cümhuriyyətinə mənim də iştirak etdiyim səfəri zamanı İsfahanda yerli protokol xidmətinin günahı ucbatından Prezident Əliyevlə bağlı bir tədbir bir neçə dəqiqə gecikirdi və Azərbaycan rəhbəri xəfif işarəylə buna münasibətini gizlətmədi: "Mən intizamlı adamam, bu saatda demişdiniz, bu saatda da gəlmişəm", - söylədi.

Həqiqətdir, Heydər Əliyev son dərəcə dəqiq, çox intizamlı idi.

Lakin o həm də yaradıcı ruha malik, istedadlı bir insan idi axı.

Belə ruhun yiyəsi, bu cür qəliblərə sığmayan istedad sahibi isə heç vaxt sonacan intizamlı ola bilmir.

Partiya intizamının yaşayış, davranış meyarına çevrildiyi sovet onilləri axarındakı Heydər Əliyev dəfələrlə, həm də nümayişkarcasına kor-koranə intizamın cızığından qırağa çıxıb, dövrün partiya dəbinə görə deyilməsi münasib olmayan cəsarətli sözləri də deyib, edilməsi mümkünsüz görünən, amma xalq tərəfindən arzulanan hərəkətləri də etməkdən çəkinməyib.

Heydər Əliyevin Azərbaycanın partiya rəhbəri olaraq 1970-ci illərdə milli ovqatlı əsərlər yazan söz ustalarını müdafiə etməsi, ya milli memarlıq üslubu və əlamətlərinin qabarıq göründüyü tikililərin artmasına rəvac verməsi bugünkü baxışla adi işlər sayıla bilər. Amma o dövrə enincə aydınlaşır ki, zəlzələnin də, vəlvələnin də, adi bir gəmi qəzasının da rəsmən gizlədildiyi, istənilən təbii fəlakətin mütləq mənada itkisiz olması elan edildiyi saxtakar sovet zəmanəsində (təsadüfən söyləmirdilər ki, ən humanist zəlzələ SSRİ-də baş verir, çünki həmişə tələfatsız ötüşür) ayrı cür düşünüb, ayrı cür danışmaq, həm də bu ideologiyanın aparıcı simalarından biri ola-ola belə etmək necə çətin, necə ağlasığmazmış; Kreml sifarişlərinin icraçısı olmalıykən, rejimin başlıca tələblərindən biri sayılan xalqların milli özlüyünün tədricən aradan götürülməsi, vahid sovet xalqının yaradılması ideyasının əksinə getmək, milli özünüifadə və özünüdərkə rəvac vermək mürəkkəb zəmanə içində əsl milli fədakarlıq, şücaət idi.

* * *

Heydər Əliyev hərbçi olub, birinci dərəcəli kommunistlərdən olub. Amma qeyd-şərtsiz tabeçiliyi tələb edən bu amillər də onun içərisini, mənini dəyişdirə bilməyib.

Heydər Əliyev inanmadığına heç zaman tabe olmayıb. Bu onun ən seçilən cəhətlərindən idi. Əgər sovet sistemi gözüyumulu tabeçiliyi deyil, məhz bu sayaq şüurlu intizamı və tabeolmanı əvvəldən intixab etmiş olsaydı, heç o cür əyintilərə, ifratlara uğrayaraq ildırım sürətiylə də tar-mar olmazdı.

Heydər Əliyev partiya, dövlət işinə, ona tapşırılan vəzifələrə sadiq qalmağına qalıb, amma vəzifələrin, nizamnamələrin, siyasi konyunkturların səfehliklərini qəbul edə bilməyib.

Quruluşsa sona qədər və istisnasız qəbul edilməsini istəyirdi.

Azacıq sapınmanı yoldan azmaq - dissidentlik hesab edirdi.

İnanıram ki, haqsızlıqla, dardüşüncəliklə, aşkar yalanla barışa bilməyən ağıllı bir insanın sıravi vətəndaş kimi həmin quruluş içərisində yaşamağı nə qədər ağır idisə, bütün eybəcərlikləri daha yaxın məsafədən, çox zamansa lap astar tərəfindən görən, özləri də dövlətin yuxarı qatlarında qərar tutanların belə həyata dözməkləri onlarçün lap müsibət, mənəvi sarsıntılar demək idi, o cümlədən Heydər Əliyevdən ötrü.

Bu səbəbdəndir ki, çox rəmzi olan bir hadisə də baş verdi - Heydər Əliyev, nəhayət ki, ötən əsrin səksəninci illərinin sonluğunda onillərlə cərgəsində dayandığı, xidmət etdiyi, rəhbərlərindən birinə çevrildiyi kommunistlər ordusundan üz döndərdi, partbiletindən imtina etdi.

Və mən inanıram ki, dünənimizə hər birimizdən daha yaxşı bələd olduğundan, bəlkə də, Heydər Əliyev müstəqilliyimizin, sərbəstliyimizin qədrini hər kəsdən daha çox bilirdi, onun dadını, şirinliyini hər birimizdən daha artıq hiss edirdi.

* * *

Xatırlayıram böyük azərbaycanşünas alim, London Universitetinin professoru Turxan Gənceyinin 1998-ci ildə İngiltərə paytaxtında, Prezident Heydər Əliyevin oradakı soydaşlarımızla görüşündə güvən duyğusuyla və qəhərlənərək dediklərini.

Atası da, özü də talelərilə, canlarıyla onillər boyu müstəqilliyimizi gətirmək yolunda fədakar mübarizələr aparmış, ömürləri boyu boğazdan yuxarı danışmamış bu qənimət adam, bu qocaman alim arxayın məmnunluqla: "Mən istiqlalımızın sabahından daha nigaran deyiləm. Çünki millətimin üçrəngli bayrağı Heydər Əliyev kimi bir rəhbərin müqtədir əllərindədir", - deyirdi...

* * *

Heydər Əliyevi görmək asan deyildi. Nə sağlığında, nə indi.

"Görmək" sözünün hərfi mənasında yox.

O mənada Heydər Əliyevi görməkdən rahat iş yoxdur.

Televiziya ekranlarında, ayrı-ayrı toplantılarda, görüşlərdə o, hər gün bizimlə üzbəüz idi və indi də Heydər Əliyevli lentlər bütün televiziyalarda əvvəlkindən də çox nümayiş etdirilir. Amma onu bütünlüyü ilə dərk etmək, mürəkkəb şəxsiyyətini dolğunluğu ilə qavramaq, hüdudsuz bir aləm olan bu insana nüfuz edə bilmək mümkünsüz qədər qəlizdir. Keçmişdə, onlu günlərdə də belə idi, indi də belədir.

Bu baxımdan Heydər Əliyev bütün dahilər kimi Təkdir. Bir ölçüdən yanaşanda, Tənhadır.

"Tək Adam". Bu ifadəni vaxtilə böyük öndər Mustafa Kamal Atatürkə şamil ediblər.

Bu deyim millət öndəri Heydər Əliyevə də tam yaraşır.

* * *

Bir başqa ölçüdən yanaşanda, başqa dahilər kimi, Heydər Əliyev də yalnız Tək yox, həm də Tənha idi.

Əlbəttə, üzdən baxanda sanki tənhalıqdan əsər-əlamət yox idi, tək də deyildi Heydər Əliyev.

Ətrafında balaları, nəvələri, qohum-əqrəbası, silahdaşları... amma hər halda, bu nəhənglikdə şəxsiyyətlər həmişə daha çox tək olurlar, öz içərilərinə, özlərinin təkrarsız aləmlərinə qapılır, axtardıqları sualların cavablarını da öz daxili dünyalarında tapırlar.

Nə ağır yük, nə ağır məsuliyyətdir - ən düzgün yolu həmişə sən göstərməlisən, ən düzgün məsləhəti həmişə sən verməlisən, ən düzgün həlli həmişə sən tapmalısan, ən dolaşıq düyünü həmişə sən açmalısan.

Həmişə sərvaxt olmalısan.

Bir an belə zəifləməyə ixtiyarın yoxdur.

Sən ümid yerisən və sənin məsləhət almalı yeganə ünvanın özünsən!

Belə nadir və əvəzolunmaz insanın yeri bu gün necə görünməsin?!

...Heydər Əliyevlə ayrılıqdan heç bir il keçməmişdi. Onun böyük yolunun davamçısı Prezident İlham Əliyevdən müsahibə alan əcnəbi müxbir bir ağır sual verdi ki, geridə qalan aylarda elə anlarınız, elə məsələlərlə qarşılaşdığınız olubmu ki, həmin məqamda "kaş atam sağ olaydı, ondan məsləhət ala biləydim" hissi ilə yaşayasınız?

Prezident İlham Əliyev belə cavab vermişdi ki, atamı daim düşünürəm. Amma siz deyən mənada iki dəfə onun yanımda olmasını, məsləhətini almağı, inandığım müdrik sözünü dinləməyi çox istəmişəm.

...Amma bir vaxtlar bütün suallara Heydər Əliyev yalnız özü cavab tapmalı olduğu kimi, indi də ən qəliz sorğuların yeganə doğru cavabını tapmağın məsuliyyəti tək İlham Əliyevin çiyinlərindədir.

İndi ümid yeri o özüdür!

* * *

Ulu Heydər Əliyevin ən üstün keyfiyyəti onun ali peşəkarlığı idi.

Bu məziyyəti olmasa idi, dünyanın superdövləti Sovet İttifaqının rəhbərlərindən biri olandan sonra ucqar Naxçıvana da başçılıq etməyi özünə rəva görməz, dövlət işinin bütün ciddiyyəti və məsuliyyəti ilə min bir problemli, o vaxtlar yalnız Ermənistan deyil, elə Azərbaycan tərəfdən də müəyyən mənada blokadaya salınmış əyalətin idarəçiliyini boynuna çəkməzdi.

Sonra Heydər Əliyev 8 milyonluq müstəqil Azərbaycanın başçısı oldu. Amma dünyanın ən böyük dövlətlərinin - əhalisi də, ərazisi də Azərbaycandan qat-qat artıq olan ölkələrin rəhbərləri ilə bir masa arxasında əyləşib danışıqlar aparanda Heydər Əliyevin şəxsiyyətinin böyüklüyü sayəsində Azərbaycan əslində olduğundan qat-qat böyük göründü və qarşı tərəf də Heydər Əliyevin Azərbaycanına daha ehtiramla, üstdən aşağı deyil, altdan yuxarı baxmağa başladı.

* * *

1996-cı ilin oktyabrı idi. Prezident təyyarəsi ilə Naxçıvana uçurduq. Heydər Əliyev ata-baba yurduna mühüm bir övladlıq borcunu yerinə yetirməkçün təşrif aparırdı.

Böyük Hüseyn Cavidin məqbərəsinin açılışına. O məqbərənin ki, onun qübbəsi altında uzun illərin həsrətindən sonra Hüseyn Cavid, xanımı Mişkinaz, oğlu Ərtoğrol, nəhayət ki, məhz Prezident Heydər Əliyevin vətəndaş cəsarəti, qeyrət və qayğısı sayəsində qovuşmuşdular.

1941-ci il dekabrın 5-də buzlu Sibirdə 59-cu kamerada saxlanan 59 saylı məhbus Hüseyn Cavid 59 yaşında vəfat etmişdi.

1982-ci ildə şairin 100 yaşı tamam olanda Heydər Əliyev SSRİ tarixində heç kəsin edə bilmədiyini etmişdi - Cavidi Vətənə qaytarmışdı.

Şairin nəşini əvvəlcə Bakıya, Cavidlər ailəsinin bir zamanlar yaşadığı mənzilə gətirmişdilər.

Ustadın tabutu başında sayğı duruşuna dayanan qızı Turanın da, mənəvi övladı Heydər Əliyevin də o zaman 59 yaşları vardı.

Cavid 1937-ci ildə həbs edilmişdi və 1996-cı ildə əzizləriylə cismən ayrılığından düz 59 il ötürdü. Mişkinaz xanım Bakıda, oğlu Ərtoğrol Naxçıvandakı ayrı bir qəbiristanlıqda uyuyurdu. Onların üçünü də, nəhayət ki, kəc taleyin, bəd ruzigarların acığına 59 il sonra Əcəmi yadigarı Mömünə xatun məqbərəsinə tay olan gözəl bir mavzoleydə qovuşdurmaqla böyük Heydər Əliyev mənəviyyat tariximizin ən əlamətdar hadisələrindən birinin müəllifinə çevrildi.

(Cavidin həyatında rəqəmlərin bir-birini heyrətamiz şəkildə izləməsi var. Biri elə bu 59 rəqəmidir. Ustadın başının ölçüsü də 59 olub. Və o vaxt - 1996-cı ilin oktyabrında Cavid məqbərəsinin təntənəli açılışından bir neçə saat sonra Prezident Heydər Əliyev Naxçıvan qəbiristanlığında atasının da məzarını ziyarət etməyə getdi. Dostəmiz onunla idi. Əlirza kişinin məzar daşına baxanda diksindim. O, Cavidin oğlu Ərtoğrolla eyni ildə vəfat etmişdi və 59 yaşında!).

* * *

...1996-cı il oktyabrın 29-u idi, təyyarəmiz Naxçıvana - Cavid bayramına uçurdu, Prezident burada da işsiz dayana bilmirdi, səfər yoldaşlarından bir neçəsini dəvət edərək fikir bölüşürdü. Turan Cavid, Yaşar Qarayev, Anar, mən... daha bir neçə nəfər.

Söhbət Mirzə Cəlildən, onun Bakıda indiyədək abidəsinin olmamasından düşmüşdü. Mən: "Mirzə Cəlil elə müstəsna şəxsiyyətdir ki, ona abidənin ucaldılması üçün bütün qayğılara baxmayaraq, imkan tapılması vacibdir", - dedim.

Prezident Heydər Əliyev: "Nəsimi də müstəsnadır, Vaqif də müstəsnadır, Cabbarlı da, Cavid də... Mən onların hər biri üçün bacardığımı etdim. Bəs niyə mən bir neçə il Azərbaycanda olmadım, davam etdirmədilər, digər klassiklərimiz, elə Mirzə Cəlil üçün abidələr ucaltmadılar? Hamısını yalnız mən etməliyəmmi?" - dedi.

Sükut oldu və dilləndim ki, bəli, cənab Prezident, Siz etməlisiniz.

Düz gözlərimə baxdı.

Davam etdim:

- Çünki Siz özünüz də müstəsna şəxsiyyətsiniz!

Gülümsündü:

- Biz Mirzə Cəlilin Bakıdakı abidəsi barədə də düşünəcəyik.

* * *

Azərbaycana XX yüzilin əvvəlində cəmi 23 ay yaşayacaq istiqlal qismət olmuşdu.

Həmin əsrin sonunda Azərbaycana təzədən nəsib olmuş müstəqillik yenə təxminən həmin qədər ömür sürdükdən sonra büdrəyə, itirilə bilərdi.

Millətin bəxti ayaq üstəymiş ki, Tale bizi bu zavaldan xilas etdi - Heydər Əliyev qayıtdı, istiqlal yükünün bütün ağırlığını dözümlü çiyinlərinə götürdü, il-il irəlilətdi və müstəqilliyin yaşına əlavə olunan hər illə bu əzizdən-əziz, üstündən-üstün nemətimizi, ən ali sərvətimizi sarsılmaz etdi.

XX yüzilin ikinci onilliyinin sonunda böyük vətənpərvərlərin iri bir dəstəsinin hamısının birlikdə görə bilmədiyi işi Heydər Əliyev XX yüzilin 90-cı illərində təkbaşına edə bildi.

Müstəsnalığın bariz təsdiqi deyilmi?

XX əsrdə Heydər Əliyev 7 il Azərbaycan Prezidenti oldu.

Əsr dəyişdi, minillik təzələndi.

O, yeni minillikdə də ilk Prezidentimiz idi.

İki əsrin, iki minilliyin Azərbaycan Prezidenti olmaq bundan sonra kiməsə bir də min il sonra qismət ola bilər.

Bu nadir iqbal və şərəf də Heydər Əliyevin bəxtinə düşdü.

Müstəsnalıq deyilmi?

Xarici maraqların, yüz cür məkrli əcnəbi siyasətlərin bəlamıza çevirə biləcəyi sərvətimiz nefti dahiyanə apardığı siyasətlə sabahkı firavanlığımızın bünövrəsinə döndərdi, ən iri dövlətlərin yürütdüyü xəttə müttəfiq çıxmasına, qol qoymasına nail oldu.

Müstəsnalıq deyilmi?!

Dünyaya meydan oxuyan Amerika onu ən böyük övladlarından birinə bənzər tutaraq "Mərkəzi Asiyanın Corc Vaşinqtonu" adlandırdı.

Müstəsnalığın daha bir görüntüsü deyilmi?!

Heydər Əliyev 30 ildən çox hakimiyyətdə oldu.

Bu onilliklər boyunca nəsillər dəyişdi, siyasətlər dəyişdi, dünya dəyişdi.

Amma liderlik yolunun başlanğıcında - 1970-ci illərdə Heydər Əliyev Azərbaycan, yaxın və uzaq xaricdə ən güclü, ən əvəzolunmazlardan sayıldığı kimi, ixtiyar çağında da, XX əsrin sonları və XXI əsrin əvvəllərində də bu üstünlüyü qoruyub saxladı.

Müstəsnalıq deyilmi?!

Bu gün artıq həyatda olmadığı günlərdə də onu eşitmək, ondan öyrənmək, ondan mənəvi güc almaq ehtiyacımız varsa, bu müstəsnalıq deyilmi?!

* * *

...Bitmiş XX yüzildə, başlanmış XXI əsrdə Arazın o tayında və bu sahilində, orada - Güney Azərbaycanda, burada - Azərbaycan Respublikasında soydaşlarımız iki dağa ən böyük dayaq, nicat rəmzi, milli səadət nişanəsi kimi baxdılar.

Bu dağlara arxalandılar, bu dağlara and içdilər.

Adaş dağlara.

Cənubi Azərbaycandakı Heydərbaba dağına.

Azərbaycan Respublikasında uşağın da, cavanın da, ahılın da, qocanın da sevə-sevə "Heydər baba" dediyi ulu öndər Heydər Əliyev DAĞINA!

Millətimizin Böyük Dayaqlarının, xalqın ümid və inam yeri olan Dağlarımızın vüqarı əskik olmasın!

* * *

Ömür yalnız təqvimin hökmüylə yaşanmış günlərin yığımı deyil. Ömrü ömür edən arxada qalan günləri dolduran mübarizələr, iş-güc, uğurlar, bihudə ötürmədiyin anlar, illərin köksünə həkk etdiyin böyük əməllərdir.

Zirvələr fatehi Heydər Əliyev ömrü uzunu xalq üçün, yurd üçün, dövlət üçün çalışdı. Ömür kitabını şərəfləndirən cahanşümul uğurlara imza atdı.

Bu gün o, dünən olduğu kimi, yenə bütün Azərbaycan boyuncadır.

Abidəyə çevrilərək Vətənin hər guşəsindən sevimli ölkəsini, əziz xalqını seyr edir.

Ondan bizə çox yadigarlar qalıb - hamısı dəyərlidir. Ancaq Heydər Əliyevin bütün taleyinin, varlığının mənası sayılası ən vacib əsər - onun yaratdığı Yoldur.

***Çox seçkinlərimiz, böyüklərimiz gəlib-gedəcəklər, söz yox ki, çoxlu parlaq izlər də qoyacaqlar. Lakin bütün millət üçün Böyük Yol yaratmaq qüdrəti yalnız Heydər Əliyev kimi müstəsnaların alın yazısıdır.***

***Bizə bağışladığın bu Yola görə ruhun şad olsun, böyük öndər!***

***Yolun yaşayırsa, onsuz da ruhun həmişə şad olacaq!..***

